http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 22 (1640) 30 dekabr 2016 - cı il Qiymәti 50 qəpik

# Dünya azərbaycanlılarına



**Əziz həmvətənlər!**

**Hörmətli soydaşlar!**

**31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü bütün soydaşlarımızın mənəvi birliyinin rəmzi kimi hər il geniş qeyd olunur. Bu sevimli bayram ərəfəsində sizi ürəkdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.**

Ümummilli lider Heydər Əliyevin nəsihətlərinə əməl edən Azərbaycan dövləti başqa ölkələrdə məskunlaşmış həmvətənlərimizin taleyinə diqqətlə yanaşır, onların hüquqlarının qorunmasına, milli-mənəvi birlik ideyaları ətrafında təşkilatlanması məsələsinə xüsusi əhəmiyyət verir. Təqdirəlayiq haldır ki, xarici ölkələrdə yaşayan soydaşlarımız da Azərbaycan Respublikası ilə əlaqələrini gücləndirir, doğma Vətənə məhəbbət və sədaqət nümayiş etdirirlər. 2016-cı ilin iyununda Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının IV Qurultayı xaricdə yaşayan həmvətənlərimiz arasında birliyin daha da möhkəmləndirilməsi, diaspor təşkilatlarının fəaliyyətinin genişləndirilməsi yolunda mühüm hadisə oldu. Şübhə yoxdur ki, soydaşlarımız qurultayın qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi istiqamətində əzmlə çalışacaq, öz qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Qürur hissi ilə qeyd edirəm ki, bu ilin oktyabrında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beş ili tamam olmuşdur. Ötən dövr ərzində yaradılmış iqtisadi potensial, nail olduğumuz sosial tərəqqi və ictimai-siyasi sabitlik dünyada hələ də davam edən qlobal maliyyə-iqtisadi böhranın təsirlərini azaltmağa, ölkəmizi risklərdən qorumağa imkan verir.

Cəmiyyətimizin inkişaf səviyyəsini bu il sentyabrın 26-da keçirilmiş Konstitusiyaya dəyişikliklərlə bağlı referendum bir daha bariz şəkildə göstərdi. Azərbaycan vətəndaşları yüksək siyasi yetkinlik nümayiş etdirərək, dövlətimizin möhkəmlənməsinə, insan hüquq və azadlıqlarının qorunmasına yeni imkanlar açan həmin dəyişikliklərə səs verdilər.

İnanıram ki, bütün soydaşlarımızın əlbir fəaliyyəti, doğma Azərbaycan torpağına sarsılmaz sədaqəti gücümüzü daha da artıracaq, inkişafımıza əngəl törədən yeganə ağrılı problemi – Ermənistanın hərbi təcavüzünü tezliklə aradan qaldırmağa, ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə imkan yaradacaq. Bu ilin aprel ayında Ermənistanın hərbi təxribatı nəticəsində cəbhədə baş vermiş hadisələr zamanı Azərbaycan Silahlı Qüvvələri düşmənin məkrli niyyətlərinin qarşısını qətiyyətlə aldı və torpaqlarımızı istənilən an işğaldan azad etməyə hazır olduğunu sübut etdi.

Azərbaycanın haqlı mövqeyi getdikcə beynəlxalq ictimaiyyətin daha çox dəstəyini qazanır. Ölkəmizin mədəniyyətlərarası dialoqun təşviqinə və qlobal humanitar problemlərin həllinə verdiyi töhfələr, multikultural dəyərlərə hörməti və tolerantlıq ənənələri xalqımıza dünyada dərin rəğbət oyatmışdır.

Hazırda Azərbaycan Respublikası öz inkişafının çox məsuliyyətli bir dövrünə qədəm qoymuşdur. Biz Vətənimizin çiçəklənməsi, qüdrətinin artırılması və suverenliyinin möhkəmləndirilməsi məqsədilə qarşımıza böyük vəzifələr qoymuşuq. Həmin vəzifələrin həlli üçün bütün həmvətənlərimiz, o cümlədən xaricdə yaşayan soydaşlarımız sıx birləşməli, harada yaşamalarından asılı olmayaraq, milli maraqlarımızı qətiyyətlə qorumalı, anti-Azərbaycan dairələrin təxribatçı əməllərinə qarşı prinsipial mübarizə aparmalıdırlar.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə səadət, firavanlıq və bütün işlərinizdə uğurlar diləyirəm.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 24 dekabr 2016-cı il.**

## BU SAYIMIZDA

2016-2017-ci tədris ilinin payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti və imtahanların mütəşəkkil keçirilməsində universitet kollektivinin vəzifələri müzakirə edilib 2-3





Sağlığında əfsanələşən görkəmli tibb aliminin yubiley tədbiri 4

QOŞA BAYRAM SEVİNCİLƏ YADDA QALAN SÖZLÜ-NƏĞMƏLİ GECƏ 3



PROREKTOR İMTAHAN–NƏZARƏT QRUPUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞÜB 5



Türkiyənin Yeditepe Universitetinin dekanı ATU-nun qonağı olub 6

Professor-müəllim heyətinin fəaliyyətinin qiymətləndirilməsi üçün komissiya yaradılıb 5

*Azərbaycan Tibb Universitetinin rektorluğu, Həmkarlar İttifaqı Komitəsi universitetin bütün əməkdaşlarını, o cümlədən professor-müəllim heyətini və tələbələrini Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirlər!*

**Böyük Elmi Şuranın dekabrın 26-da keçirilən növbəti yığıncağını açan universitetin rektoru, professor Gəray Gəraybəyli gündəliyə keçməzdən öncə idman kafedrasının müdiri, professor Kamal Kəbirlinskini 80 illik yubileyi münasibətilə təbrik etdi, onun uzun illər universitetimizin idman sahəsində göstərdiyi nailiyyətləri yüksək qiymətləndirdi və onu universitetimizin canlı əfsanələrindən biri adlandırdı. Sonra yubilyara Səhiyyə Nazirliyinin, İdman və Gənclər Nazirliyinin, eləcə də Azərbaycan Tibb Universitetinin "Fəxri fərmanları" təqdim olundu.**




# Böyük Elmi Şurada

*Bundan sonra iclasın gündəliyini diqqətə çatdıran rektor "Azərbaycan Tibb Universitetində 2016-2017-ci tədris ilinin payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti və imtahanların mütəşəkkil keçirilməsində universitet kollektivinin vəzifələri" barədə hesabat məruzəsi ilə çıxış etmək üçün sözü universitetin tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyevə verdi.*

Son illər cəmiyyət həyatındakı fundamental dəyişikliklər milli təhsil konsepsiyasının modernləşdirilməsini, inkişaf etmiş dövlətlərin mütərəqqi maarifçilik ənənələrinin, müasir informasiya və innovasiya texnologiyalarının mənimsənilməsini, mənəvi-intelektual yüksəlişə xidmət edən siyasətin həyata keçirilməsini aktual məsələ kimi önə çıxdığını vurğulayan natiq dedi ki, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən elm və təhsil islahatlarının başlıca qayəsi də məhz bu fundamental prinsiplərin sistemli şəkildə reallaşdırılması, dünya təhsil sisteminə inteqrasiyasının təmin edilməsindən ibarətdir:



"Ölkə prezidenti möhtərəm İlham Əliyev cənablarının 2013-cü il tarixli Sərəncamı ilə «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»na və 19 yanvar 2015-ci il tarixli Sərəncamı ilə də «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət planı»na uyğun olaraq davamlı inkişaf etdirilir. Azərbaycan Tibb Universitetində gənc həkim, hərbi həkim və əczaçı kadrların hazırlığı da «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»na əsasən qəbul olunmuş universitetin İnkişaf proqramına uyğun aparılır."

Sözünə davam edən S.Əliyev cari tədris ilinin keçən 4 ayı ərzində universitetdə tədrisin keyfiyyətinin metodiki cəhətdən yenidən qurulması üçün xeyli işlər görüldüyünü qeyd edib: "Kafedralar tədrisin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə son informasiya texnologiyaları ilə təmin olunmuş, universitet klinikalarında aparılan diaqnostik və müalicə işlərinə tələbələrin, magistr, rezident və doktorantların daha yaxından cəlb olunması, yeni dərslik, dərs vəsaiti və metodiki vəsaitin hazırlanması və çapı, professor-müəllim heyətinin və tələbələrin sosial həyatının yaxşılaşdırılması və s. davam etdirilmişdir.

Cari tədris ilinin keçən 4 ayı ərzində universitetdə tədrisin keyfiyyətinin metodiki cəhətdən yenidən qurulması üçün xeyli iş görülmüş, müəyyən kadr islahatları aparılmış, I, II müalicə-profilaktika fakultələrinin dekan seçkiləri həyata keçirilmiş, dosent Q.Əhmədov – I müalicə-profilaktika fakültəsinin, dosent İ.Məhərrəmbəyli isə II müalicə-profilaktika fakültəsinin dekan vəzifələrinə seçilmişlər.

Cari tədris ilinin payız semestrində, daha dəqiq desək, 10 noyabr – 10 dekabr 2016-cı ildə universitetin növbəti akkreditasiyası məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya şöbəsi tərəfindən təyin olunmuş komissiya fəaliyyət göstərmiş, universitetin özünütəhlil komissiyasının hesabatına uyğun olaraq kafedralar, dekanlıqlar, klinikalar, şöbələr, bir sözlə, bütün strukturların fəaliyyəti yoxlanılmış, buraxılış kursunda təhsilalanların yaddaş bilikləri 6 fənn üzrə ali tibb təhsilinin əsas təhsili və bakalavriaturada, 4 fənn üzrə isə magistratura və rezidenturada yoxlanılmışdır.

Cari tədris ilinin payız semestrində tədrisin keyfiyyətini yaxşılaşdırmaq və qışa hazırlıq məqsədilə universitetdə xeyli işlər görüldüyünü qeyd edən S. Əliyev məlumat verdi ki, 5 saylı tədris binasının 10 və 11-ci mərtəbəsində hazırlıq kursunda təhsil alan dinləyicilər üçün 17 dərs otağı əsaslı təmir edilərək istifadəyə verilmiş, patoloji anatomiya kafedrası yeni mebellərlə təchiz olunmuş, əsaslı kitabxananın kitab fondu və universitetin arxivi kitab rəfləri ilə təchiz edilmişdir.

Stomatoloji Klinikanın 2-ci mərtəbəsinin dəhlizi əsaslı təmir olunmuş, mərkəzi qazanxana, tədris binalarında və yataqxanalarında istifadəyə yararsız istilik sistemi dəyişdirilmiş, 1, 3, 6 saylı tələbə yataqxanaları qaz və elektrik sobaları ilə təchiz edilmiş, tədris-terapevtik klinikada sanitar qovşaqlar təmir olunmuş, istilik və su sistemi dəyişdirilmiş, inzibati binanın zəmin qat sanitar qovşağı təmir edilmişdir. Əsaslı təmirinə başlanılan 2 saylı qızlar yataqxanasının cari tədris ilinin sonuna kimi istifadəyə verilməsi planlaşdırılır.

Dekanlıqlar və ictimai təşkilatlar tərəfindən bütün kafedralarda vaxtaşırı reydlər keçirildiyini, professor-müəllim heyətinin işə, tələbələrin isə dərsə davamiyyətinin nəzarətdə saxlanıldığını söyləyən natiq bildirdi ki, cari dərs ilində 19 tələbə universitetdən öz arzusu ilə xaric olunmuşdur.

S.Əliyev hər semestrin sonuna bir ay qalmış bütün fakültələrin kursları üzrə keçirilən istehsalat müşavirələrində qaldırılan problemlərə də toxunaraq qeyd etdi ki, 1-ci kurs tələbələri ilə aparılan müşavirələrdə kompyuter vasitəsilə aparılan test imtahanlarının yeni variantı haqqında geniş izahat verilmiş, tələbələrin sualları cavablandırılmış və bir sıra məsələlər elə yerindəcə həllini tapmışdır.

Məruzəçi şura üzvlərinin diqqətinə çatdırdı ki, universitet rəhbərliyi tərəfindən 2016/2017-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının mütəşəkkil keçirmək məqsədilə 586/T saylı 04 noyabr 2016-cı il tarixli əmr imzalanmışdır.

Həmin əmrə müvafiq olaraq universitetin tədris və müalicə işləri üzrə prorektoru, tədris şöbəsi, ayrı-ayrı dekanlıqlar və kafedralar, virtual test mərkəzi, tədris-metodik və innovasiya şöbəsi qarşısında icra olunması çox vacib olan vəzifələr qoyulmuş və onlar bu vəzifələrin öhdəsindən gəlməyə çalışmış, nəzərdə tutulan əksər işlər artıq başa çatdırılmışdır.

Rektorluq şurasında aparılan müzakirələrin nəticəsi kimi kompyuter vasitəsi test üsulu ilə aparılan imtahanların modernləşdirilməsi məqsədilə qərar qəbul edilmiş və 1-ci kursdan başlayaraq sualların 50-dən 25-ə endirilməsi qərara alınmışdır. Hər sual 2 balla qiymətləndiriləcək. 20 sual tələbələrin nəzərinə çatdırılan suallardandır, 5 sual isə qapalı və çoxcavablı olacaq. Beləliklə, hətta sualları əzbərləyən tələbə belə bütün hallarda «əla» qiymət ala bilməyəcək. «Əla» və «çoxyaxşı» qiymət ala bilmək üçün dərsliyi oxumalı, gündəlik təhsilinə ciddi fikir verməlidir.

2-6-cı kurs tələbələri üçün isə sualların bir qrupu yenidən işlənilmiş və onlar miqdarca artırılmışdır.

2016/2017-ci tədris ilində



Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən universitetə rezidentura üzrə I kursa 34 ixtisas üzrə 138 nəfər rezident, 12 nəfər isə xarici rezident qəbul olmuş, sonradan onlardan 2 nəfər xaric olmuşdur. Hal-hazırda Azərbaycan Tibb Universiteti üzrə I-V kurslarda 36 ixtisas üzrə 676 rezident təhsil alır.

Universitetdə təhsil alan xarici ölkə vətəndaşlarının təhsilinin təşkili məsələsi üzərində dayanan prorektor xarici ölkə vətəndaşlarının tələbə kontingentimizin önəmli hissəsini təşkil etdiyini söylədi: "Belə ki, 2016/2017-ci tədris ilinin əvvəlindən universitetdə 26 ölkədən 769 tələbə, 679 dinləyici, 1 ixtisasartıran, 30 rezident, 6 nəfər magistr, cəmi 1475 nəfər xarici vətəndaş təhsil alır. Bu tələbələrdən İordaniya vətəndaşı olan 6 nəfəri dövlət xətti ilə, 137 tələbə isə Türkiyə Cumhuriyyəti Seçmə və Yerləşdirmə Mərkəzi (YÖK) yolu ilə təhsilini davam etdirirlər".

S. Əliyev məruzəsini yekunlaşdıraraq universitetin tədris hissəsi, dekanlıqlar və kafedraların bu çətin və məsul prosesə hazır olduğunu, imtahan sessiyasının uğurla keçəcəyinə əminliyini bildirdi.

Kafedra müdirlərindən Nuru Bayramov, Arif Əfəndiyev, Eldar Qasımov və Vəsadət Əzizov hesabatı qənaətbəxş qiymətləndirərək payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti ilə bağlı fikirlərini və təkliflərini şura üzvləri ilə bölüşdülər.

G.Gəraybəyli müzakirələrə yekun vuraraq Sabir müəllimin məruzəsini yüksək qiymətləndirdi və müzakirələrdə səslənən fikirlərə münasibətini açıqladı: "Bir çox müəllimlər 25-30 il bundan qabaqkı vəziyyədə qalır və bu da bir çox problemlər yaradır. Biz bunu yaxşı və ya pis də qiymətləndirərik, lakin nə zaman o zamandı, nə də tələbə əvvəlki tələbə deyil. Dur- otur və yaxud xalatı sonacan düymələ, sağa dönmə, sola dönmə. Bu günkü tələbə ilə belə rəftar etmək düzgün deyil. Onlar bunu qəbul etmirlər, çünki hər dövrün öz tələbi var. Əvvəllər ölkəmizdə bir tibb universiteti var idi, tələbə qəbul olurdu və necə olsa buranı oxuyub başa vurmalı idi. Ancaq indi tələbə dünyanın istənilən yerində gedib oxuya bilir. Biz tələbələrə xidmət göstəririk. Necə ki, burda deyildi, Müxtəlif kurslarda oxuyan 19 tələbə öz istəyi ilə bizim universitetdən başqa yerlərə gedib. Bu açıq-aşkar bizim xidmətimizdən narazı qalanlardır ki, gedib başqa universitetlərdə təhsillərini davam etdirirlər. Çünki bu da dövrün tələbi səviyyəsindən irəli gələn bir məsələdir. Məruzədə qeyd olundu ki, nəzəri və kliniki kafedralarda bir-birinə zidd olan proseslər var. Bəzi kafedralar var ki, çalışır I kursa gələn tələbəyə müxtəlif bəhanələrlə hədə-qorxu gəlsin, birinci gündən sındırsın. Axı bilmək lazımdır ki, onlar XI sinfi bitirib gözəl arzularla, ümidlərlə təhsil almağa gəlib. Elə kafedralar var ki, onların dərs yükü həddindən artıqdır. Mənim iştirak etdiyim bir sıra yüksək səviyyəli konfrans və tədbirlərdə dəfələrlə qeyd olunub ki, müəllim bələdçidir, müəllim yol göstərəndir. Bir faktı bilməliyik ki, burda nə baş verirsə, hamı tez bir zamanda

(davamı səh. 3-də)

# QOŞA BAYRAM SEVİNCİLƏ YADDA QALAN SÖZLÜ-NƏĞMƏLİ GECƏ

**Dekabrın 28-də Azərbaycan Tibb Universitetinin böyük akt zalında təntənəli bayram tədbiri oldu. Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni İl bayramı münasibətilə düzənlənən sözlü-nəğməli gecənin aparıcıları - II müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Səmra Bağırlı və hərbi tibb fakültəsinin V kurs tələbəsi Eşqin Ələsgərov 2016-cı ilin sonu, 2017-ci ilin astanasında tədbir iştirakçılarını salamlayaraq 1993-cü ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 31 dekabrın həm də Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edildiyini dedilər: “Azərbaycan xalqı üçün hər il 31 dekabr tarixi qoşa bayram sevinci ilə yadda qalır. Bu münasibətlə universitet rəhbərliyi professor-müəllim heyətini və tələbələri bir araya toplamışdır”.**

Bundan sonra təbrik üçün səhnəyə dəvət olunan universitetin rektoru, professor Gəray Gəraybəyli səmimi duyğularını, arzu və istəklərini bayram tədbirinin iştirakçıları ilə bölüşdü: “Çox hörmətli professor- müəllim heyəti, kolleqalar və əziz tələbələr!



Hələ uşaqlıqdan Yeni İl bayramı hamımız üçün ən sevimli bayram idi. Tələbələrimizin də xatırlatdığı kimi, 1993-cü ildə müasir Azərbaycanın qurucusu, ulu öndər Heydər Əliyev Azərbaycan xalqına daha bir bayram hədiyyə etdi. Artıq neçə illərdir ki, dünyanın hər yerində yaşayan həmvətənlərimiz Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü qeyd edirlər. Biz də bu ərəfədə belə qərara gəldik ki, həm professor- müəllim heyətini, həm digər işçiləri, xüsusilə də tələbələrimizi bir yerə toplayıb tədbir keçirək.

Bu günkü tədbir sırf bayram tədbiridir. Fürsətdən istifadə edib hər birinizi, sizin simanızda bütün Azərbaycan xalqını qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni İl bayramı münasibətilə təbrik edirəm.

Əslində ürəyim arzularla doludur. İlk növbədə sizlərə cansağlığı, hər birinizin ailəsinə mehribançılıq, səadət, tələbələrimizə nailiyyətlər arzulayıram. Arzu edirəm ki, tələbələrimizin sədası dünyanın bir çox müasir universitetlərindən və klinikalarından gəlsin. Onu da arzu edirəm ki, biliyini və elmi nəticələrini daim yüksəldən belə tələbələrin sırasına bu gün hələ I, II, III, IV kursda oxuyan tələbələrimiz də qatılsın.

Hər gün böyük zəhmət hesabına öz vəzifələrini şərəflə yerinə yetirən professor-müəllim heyətini



təbrik edirəm. Sizə cansağlığı, uğurlar diləyirəm. Bir daha Yeni İliniz mübarək olsun!”

Rektorun alqışlarla qarşılanan təbrikinin ardınca bir-birini əvəzləyən musiqi nömrələri hamını bayram ovqatına köklədi. Universitetimizin “Şəfa” xalq çalğı alətləri ansamblının ifasında Azərbaycan xalq mahnısı “Sarı gəlin” xəyalən bizi uzaqlara apararaq düşüncələrimizə bir həzinlik gətirdi. Yeri gəlmişkən bildirək ki, ansamlın üzvləri Şəmsi Axundov, Fərhan Namazov, Yunis Məmmədov, Elçin Şixəliyev, Cahangir Şirinov, Tariel Əlibəyli və Nadir Nəbiyevdir.

Tədbirə qonaq kimi dəvət olunan Bülbül adına orta ixtisas musiqi məktəbinin tələbələri də öz ifaları ilə tamaşaçı qəlbinə yol tapdılar.

Musiqi fasilələrində hörmətli rektorumuzun təklifi ilə bir sıra nominasiyalar üzrə təsis edilən mükafatlar da sahiblərinə təqdim olundu. Universitetimizdə uzun illər səmərəli və qüsursuz fəaliyyət göstərmiş sabiq dekanlarımız professor Abuzər Qazıyev, dosent Tariyel İsmayılov və dosent Nəriman Nağıyev “Fəxri fərman”a və bir aylıq əmək haqqı məbləğində pul mükafatına layiq görüldülər.

“Ən yaxşı müəllim” nominasiyası üzrə mükafat isə patoloji fiziologiya kafedrasının dosenti Sərdar Əliyev və məhkəmə təbabəti kafedrasının dosenti Zabit Məmmədova verildi.

“İlin ən yaxşı tələbəsi” müsabiqəsinin qalibi adını II müalicə-profilaktika fakültəsinin VI kurs tələbəsi Nərgiz Müştaqzadə, tibbi-profilaktika fakültəsinin IV kurs tələbəsi Sevinc Abbasova, hərbi tibb fakültəsinin VI kurs tələbəsi Alxan Alxanlı, əczaçılıq fakültəsinin III kurs tələbəsi Ayşən Azadova, xarici tələbələr üzrə Türkmənistan vətəndaşı, II müalicə-profilaktika fakültəsinin I kurs tələbəsi Malik Kurbanov qazandılar.

984 tələbənin yaşadığı universitet yataqxanalarında keçirilən “Ən səliqəli və nümunəvi otaq” müsabiqəsinin qalibi 64 otaq içərisindən 3 saylı qızlar yataqxanasının 87 saylı otağı oldu. Həmin otağın sakinləri - tibbi-profilaktika fakültəsinin III kurs tələbəsi Aidə Əlistanova, müalicə-profilaktika fakültəsinin IV kurs tələbəsi Gülnar Hüseynova və müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi İnci Quliyeva pul mükafatına layiq görüldülər.

Universitetimizin günü-gündən gözəlləşməsində xüsusi zəhməti olan təsərrüfat işçiləri də unudulmadı. “İlin ən yaxşı təsərrüfat işçisi” adına layiq görülən Həsən Həsənquliyev rektorun müvafiq əmri ilə bir aylıq əmək haqqı məbləğində pulla mükafatlandırıldı.

Mükafatların təqdim olunması üçün universitetin rektoru, professor Gəray Gəraybəyli və Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov səhnəyə dəvət edildilər.

...Söz yenidən musiqinindir. Stomatologiya fakültəsinin IV kurs tələbəsi Nərmin Camalova fransız və ingilis dilində mahnıları çox məharətlə və məlahətli səslə ifa etdi.

Azərbaycan Tibb Universitetinin “Şəfa” xalq çalğı alətləri ansamblının ifasında “Möcüzələr adası” filmindən “Neft daşları”, “Əziz dostum” mahnıları da tamaşaçı sevgisi ilə qarşılandı.

Bülbül adına orta ixtisas musiqi məktəbinin tələbəsi Xəyalə Cavadvənd fleytada Tofiq Quliyevin



“Səhər nəğməsi”ni tamaşaçılara ərməğan etdi. Sona İskəndərlinin ifasında Tofiq Quliyevin “Bakılıyam mən”, I müalicə-profilaktika fakültəsinin I kurs tələbəsi Əziz Əhmədlinin ifasında “Çoban qızı” mahnıları da zövqləri oxşadı. Hərbi tibb fakültəsinin II kurs tələbəsi Nadir Nəbiyev “Cənab leytenant” mahnısını hərbi geyimdə oxuyaraq gənclərin vətənpərvərlik ruhunu bir az da alovlandırdı.

“Ay qardaş, eloğlu, başına dönüm,
Ayım da, ilim də Azərbaycandır.
Mənim məmləkətim, ürəyim, canım,
Ağzımda dilim də Azərbaycandır”.

Vətənpərvər şairimiz Eldar İsmayılın bu misralarından sonra səslənən “Qarabağ şikəstəsi” zalda həsrət qarışıq, amma ümid dolu bir əhval-ruhiyyə yaratdı. Mənzurə Abdulrəhimova, Orxan Gülməmmədov və Ataxan Quliyevin şaqraq zəngulələri işğal altında qalan torpaqlarımızın harayına çevrildi. Bu gün balaca Mənzurə “Könlüm keçir Qarabağdan” - deyə hayqırırsa, hələ qələbə inamımız tükənməyib. Rektorun ayağa qalxaraq səhnəyə yaxınlaşması, balaca qızcığazın əlini sıxması zaldakı coşqunu daha da artırdı.

“Mehriban olaq” mahnısı yüksək səviyyədə keçən tədbirin leytmotivi kimi səsləndi. Bayram konsertinin son akkordunu isə Sona İskəndərli sərhəd tanımayan musiqi dilində bütün tamaşaçılara xoşbəxtlik diləməklə vurdu.

Sizin də bayramlarınız mübarək olsun, əziz oxucular!

**Belə tədbirlərin ardıcıl keçirilməsi arzusu ilə:**

**Arif MƏMMƏDLİ**

(əvvəli səh. 2-də)

# Böyük Elmi Şurada

sosial şəbəkə vasitəsilə xəbər tutur. Bizim borcumuzdur ki, təmiz, obyektivlik şəraitində 6 il tələbəyə yüksək bilik verib bacarıqlı həkim kimi yetişdirək”.

Müxtəlif məsələlərdən danışan rektor bundan qabaqkı şuralarda universitet əməkdaşlarının elmi-pedaqoji fəaliyyətinin dəyərləndirilməsi məqsədilə yaradılan monitorinq komissiyasının fəaliyyətini də yüksək qiymətləndirdi: “Praktik fəaliyyətlə məşğul olan bütün mütəxəssislər mütləq sertifikasiyadan keçməlidir. Burda məqsəd kimisə əzmək və yaxud işdən çıxarmaq deyil, onları sadəcə bir az tərpətmək lazımdır ki, başa düşsünlər ki, artıq o saralmış vərəqdən mühazirə deməyin vaxtı keçib, müasir texnologiyalardan istifadə etməyin dövrüdür”.

Sözünə davam edən G.Gəraybəyli məlumat verdi ki, dünyada baş verən maliyyə çətinliyi və iqtisadi böhranla əlaqədar universitetimizdə təhsil alan xarici tələbələrin təhsil haqqı müəyyən qədər azaldılb və Azn pul vahidi - şərti vahidlə əvəzlənib.

Yazılan testlərin mövcud tədris proqramını əhatə etməsinə, yuxarı kurslarda bacarıqların öyrədilməsinə və rezident hazırlığının prioritetlərinə də toxunan universitetin rəhbəri tələbələrin asudə vaxtlarını səmərəli keçirməsi üçün onlara paytaxtımızda fəaliyyət göstərən teatrlara biletlərin pulsuz verilməsi üçün həmkarlar təşkilatına tapşırıq verdi.

Rektor çıxışının sonunda şura üzvlərini və eləcə də bütün kollektivi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il Bayramı münasibətilə təbrik etdi.

Sonda nevrologiya və tibbi genetika kafedrsının əməkdaşlarının təklifini nəzərə alan şura üzvləri kafedranın adının dəyişdirilərək nevrologiya kafedrası kimi qəbul etdi. Sonra kollektiv tərəfindən namizədlikləri irəli sürülən farmokoqnoziya və botanika kafedrasının professoru Yusif Kərimovu və II mamalıq- ginekologiya kafedrasının professoru Naziyyə Şəmsədinskayanı universitetin məsləhətçi-professoru vəzifəsinə təsdiqləyən Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Mansur ƏLƏKBƏRLİ**

**Fotolar Cənnətalı Çingizindir**

# Sağlığında əfsanələşən görkəmli tibb aliminin yubiley tədbiri

**Dekabrın 20-də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında Azərbaycan Respublikasının əməkdar elm xadimi, "Şöhrət" ordenli, professor Naziyyə Şəmsədinskayanın anadan olmasının 90 illiyinə həsr edilmiş beynəlxalq elmi konfrans keçirildi.**

Konfransı giriş nitqiylə açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli yubilyarı nəinki Azərbaycan Tibb Universitetinin, eləcə də ölkəmizin tibb ictimaiyyətinin canlı əfsanəsi adlandırdı: "Bu gün Naziyyə Şəmsədinskayanın yubileyində iştirak etmək istəyənlərin sayı hədsiz çoxdur. Çünki Naziyyə xanım bu illər ərzində istər Tibb Universitetinin həyatında, istər tibb elmində, istərsə də minlərlə tələbələrin ürəyində dərin bir iz



qoymağı bacarıb. Onun yetişdirdiyi tələbələrin səsi uzaqlardan gəlir, onlar hələ də Naziyyə xanımın mühazirələrini xatırlayır. Azərbaycanda mamalıq-ginekologiya elminin inkişafında Naziyyə Şəmsədinskayanın araşdırmaları, elmi tədqiqatları, əsərlərinin böyük rolu olub".

Rektor qeyd etdi ki, Naziyyə xanım görkəmli elm xadimi olmaqla yanaşı, həm də böyük ürək sahibidir. Naziyyə xanımı yubileyi münasibətilə ürəkdən təbrik edən professor G.Gəraybəyli ona bundan sonra da uzun ömür və möhkəm cansağlığı arzuladı.

Sonra ATU-nun II mamalıq və ginekologiya kafedrasının müdiri, professor Hicran xanım Bağırova Naziyyə Şəmsədinskayanın həyat və fəaliyyəti haqqında geniş məlumat verdi. O, bildirdi ki, Naziyyə Musa qızı Şəmsədinskaya 1926-cı ildə Bakı şəhərində doğulub. 1944-cü ildə isə N.Nərimanov adına Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub. Təhsi aldığı illərdə fəal qrup nümayəndəsi olaraq daim ictimai-elmi işlərdə yaxından iştirak etmiş, Tələbə Elmi Cəmiyyətinin aktiv üzvü kimi ali təhsilini 1949-cu ildə bitirmişdir. Həkimlik fəaliyyətinə Naxçıvan MR Ordubad şəhərində mama-ginekoloq kimi başlayan, N.Şəmsədinskayaya bu ərəfədə Ə.Əliyev adına Həkimlərin Təkmilləşdirmə İnstitutuna yarımillik kursa getmişdir. 1955-ci ildən Bakı şəhəri N.K.Krupskaya adına 2 saylı Kliniki xəstəxanada mama-ginekoloq, ordinator vəzifəsində çalışmışdır. 1957-ci ildə müsabiqə yolu ilə ə.e.x., professor F.N.İlinin rəhbərlik etdiyi mamalıq-ginekologiya kafedrası üzrə aspiranturaya qəbul olmuş, oranı bitirdikdən sonra kafedranın baş laboranti vəzifəsində saxlanılmışdır. Sözünə davam edən məruzəçi qeyd etdi ki, professor N. Şəmsədinskaya 1962- ci ildə



Tbilisi Dövlət Tibb İnstitutunda " namizədlik dissertasiyasını, 1973- cü ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. O, 1963-cü ilidə müsabiqə yolu ilə müalicə-profilaktika fakültəsinin mamalıq-ginekologiya kafedrasının assistenti, 1966-cı ilin fevralından isə həmin dosenti vəzifəsinə seçilmişdir.

1970-ci ildən başlayaraq 1993-cü ilədək II mamalıq-ginekologiya kafedrasının müdiri I kimi çalışmışdır. 1998-ci ildən 2003-cü illərdə yenidən kafedra müdiri olmuşdur. 2004-cü ildən indiyədək öz xahişi ilə həmin kafedranın professoru vəzifəsinə keçirilmişdir.

Professor N. Şəmsədinskaya 200-dən çox elmi işin müəllifidir. Onun rəhbərliyi altında 39 namizədlik, 2 doktorluq dissertasiyası müdafiə olunmuşdur.

Təbriklərə qoşulan ATU-nun elmi işlər üzrə prorektoru Rauf Bəylərov Azərbaycanda mamalıq və ginekologiyanın inkişafında, o cümlədən milli elmi kadrların yetişdirilməsində Naziyyə Şəmsədinskayanın böyük rolu olduğunu qeyd etdi .

Tədbirdə çıxış edən ATU-nun II cərrahi xəstəliklər kafedrasının müdiri, akademik Böyükkişi Ağayev Naziyyə xanımın ATU-daki fəaliyyəti, universitet üçün gördüyü işlərdən söz açdı. "Onu ATU-nun gələcək mama-ginekoloqları və tələbələri üçün nümunəvi həkim kimi xarakterizə etdi.

Urologiya kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Südeyif İmamverdiyev çıxış edərək, bu günün ümumilikdə bütün tibb ictimaiyyəti üçün əlamətdar bir gün olduğunu qeyd etdi: "Böyük Azərbaycan alimi Naziyyə xanım ATU-nun hər bir əməkdaşı, hər bir gənc həkimi üçün böyük örnəkdir. O, bütün həyatını insanların sağlamlığının qorunmasına, ölkə səhiyyəsinin tərəqqisinə həsr edib. Naziyyə xanımı mən 60-cı illərdən tanıyıram. Hələ özünü tanımadan, ölkəmizdə onun adını müxtəlif məqalələrdə, universitetdə tez-tez eşidirdim. Mənim onunla tanışlığım bilavasitə çalışdığım uroloji klinikadakı fəaliyyətimlə bağlı olub".

Təkmilləşmə İnstitutunun mamalıq və ginekologiya kafedrasının müdiri, professor Solmaz İsrafilbəyli Naziyyə xanımı çoxdan və yaxından tanıdığını, onun bacarıqlı həkim, görkəmli elm xadimi olması ilə yanaşı həm də güclü qadın kimi xarakterizə etdi.

Təkmilləşdirmə İnstitunun dosenti Samirə xanım çıxış edərək, çalışdığı institutun kollektivi adından Naziyyə xanımı səmimiyyətlə təbrik etdi ona, uzun ömür arzuladı.

Qulaq-boğaz-burun xəstəlikləri kafedrasının müdiri, professor Əzizağa Talışinski yubilyara kafedra əməkdaşlarının təbrikini çatdıraraq, Naziyyə xanımın qazandığı uğurların arxasında gərgin əməyin dayandığını qeyd etdi.

I mamalıq və ginekologiya kafedrasının müdiri, professor Elmira Əliyeva yubilyarı Azərbaycanda mamalıq və ginekologiya elminin canlı əfsanəsi kimi qiymətləndirdi.

Bundan başqa epidemiologiya kaferasının müdiri, professor İbadulla Ağayev, II mamalıq və ginekologiya kafedrasının dosenti Səfa Bağırova çıxış edərək, Naziyyə Şəmsədinskayaya haqqında ürək sözlərini dilə gətirdilər, ona uzun ömür, cansağlığı arzuladılar.

Çıxışlarda Naziyyə xanımın Azərbaycanda tibb elminin inkişaf etdirilməsində xüsusi rolu qeyd edilib və onun mamalıq ginekologiya sahəsində çalışan gənc həkimlərə bir nümunə olduğu vurğulanıb.

Yubiley tədbirindən sonra konfrans öz işini ayrı-ayrı bölmələr üzrə davam etdirib.

**M.ABBASOĞLU**

# "Elsevier Clinical Solutions" kompaniyasının nümayəndələri təqdimat mərasimi keçirib

- **Dekabrın 22-də Azərbaycan Tibb Universitetində (ATU) "Elsevier Clinical Solutions" Kompaniyasının nümayəndələri tərəfindən bu ali təhsil ocağının professor-müəllim heyəti üçün təqdimat mərasimi keçirilib.**





"Clinical Key" elektron kitabxanasının təqdimatına həsr olunmuş tədbirdə iştirakçılara kitabxanadan istifadə qaydaları, bu şəbəkənin onlara verdiyi üstünlüklərdən söz açılıb.

ATU-nun elmi işlər üzrə prorektoru Rauf Bəylərov "Elsevier Clinical Solutions" şirkəti ilə memorandum imzaladıqlarını xatırladıb. O, bildirib ki, bu memorandum əsasında ATU-nun 4 klinikası "Clinical Key" proqramına qoşulub: "Bu proqrama qoşulmanın müsbət tərəfləri var, bu gün bu haqda hər kəsə məlumat veriləcək.

Gələcəkdə universitet tərəfindən Elmin İnkişaf Fonduna müraciət edəcəyik ki, "Elsevier Clinical Solutions" şirkəti ilə davamlı olaraq qeyd olunan layihələri həyata keçirmək üçün bizə qrant ayrılsın. Ümid edirik ki, planlaşdırdığımız layihələr uğurla həyata keçəcək".

Daha sonra söz alan "Elsevier Clinical Solutions" şirkətinin satış meneceri Atilla İkinci şirkətin Tibb Universitetinə və klinikalarına xidmətlərindən, yaratdığı yeniliklərdən, gördükləri işlərdən danışıb.

# Tibb Universitetinin həkimləri kimsəsiz uşaqları sevindirdi

**Dekabrın 21-də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında xeyriyyə kampaniyasına start verilib. Aksiya çərçivəsində Bakı şəhəri Psixonevroloji Uşaq Evinin sakinləri pulsuz müayinə və müalicə olunurlar.**




Klinikanın baş həkimi, ATU-nun II cərrahi xəstəliklər kafedrasının professoru Rauf Ağayevin sözlərinə görə, kampaniya 31 Dekabr - Dünya Azərbaycanlıların Həmrəylik Günü münasibətilə təşkil olunub. Məqsəd uşaq evində qalan kimsəsiz azyaşlıları sevindirmək, onları narahat edən xəstəlikləri üzə çıxarmaq, müalicəsini təmin etməkdən ibarətdir.

2 gün davam edən aksiyada 30-35 əngəlli uşağın oftalmoloq, LOR, kardioloq tərəfindən tibbi baxışı keçirilib. Aksiya zamanı valideyn himayəsindən məhrum olan və sağlamlığında bəzi problemləri olan uşaqların müasir avadanlıq vasitəsilə daxili orqanlarının da müayinəsi aparılıb.

Qeyd edək ki, ATU-nun Tədris Cərrahiyyə Klinikası indiyədək dəfələrlə belə aksiyalar təşkil edib.

# PROREKTOR İMTAHAN-NƏZARƏT QRUPUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞÜB

**Qış sessiya imtahanları ilə əlaqədar dekabrın 21-də ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev imtahan-nəzarət qrupunun üzvləri ilə görüşüb. Dekabrın 29-da başlanacaq imtahana hazırlıq işlərinin gedişatı ilə maraqlanan prorektor gələcəkdə hansısa problemlərin yaranmaması üçün imtahan nəzarətçilərinin seçiminə daha diqqətlə yanaşmağın vacibliyini vurğulayıb. Qeyd edib ki, təhsil nazirinin qərarı ilə ictimaiyyət nümayəndələri də müşahidəçi kimi imtahanın gedişini izləyə bilərlər. O, eyni zamanda rektorun əmrinə görə müvafiq kafedra müdirlərinin, professorların imtahanın gedişini izləmək hüquqlarının da olduğunu, ancaq bəzi kafedra müdirlərinin bu hüquqdan yetərincə istifadə etmədiklərini təəssüf hissi ilə diqqətə çatdırıb.**





İmtahan-nəzarət qrupunun rəhbəri, dosent Kamandar Yaqubov nəzarətçilərin üzərinə düşən konkret vəzifələrdən danışıb. Bildirib ki, onların hər biri səhər saat 9-a işləmiş nəzarət zalında olmalı, işə gələn əməkdaşlar ad və soyadlarını yazaraq imzaları ilə təsdiqləməlidir. "Belə olduğu təqdirdə şəffaflıq təmin olunur. İmtahan başlamazdan öncə biz zalda 2-3 dəqiqəlik söhbət apararaq əməkdaşın hansı zala daxil olacağını müəyyənləşdiririk. Hər sırada mütləq bir nəzarətçi olmalıdır ki, imtahanı başlaya bilək: "Əgər hansı sırada nəzarətçi yoxdursa, imtahan başlasa da, biz həmin sıraya tələbə buraxa bilmərik. Çünki imtahanın gedişi səs yazılmaq şərtilə görüntülü lentə alınır. Hansısa sırada problem yaranarsa, səhərisi və ya bir neçə gün sonra problem yaranan sırada kimin nəzarətçi olması barədə mütləq rəhbərliyə məlumat verməliyik".

İmtahan zalında nəzarətçilərin bir-biriylə və ya tələbələrlə danışmasının, bayıra çıxmasının qadağan olduğunu bildirən imtahan nəzarət qrupunun rəhbəri bu qaydalara ciddi riayət olunduğunu qeyd etdi: "Nəzərə almaq lazımdır ki, bir gündə 2500 tələbə imtahan verirsə və hər ailədə orta hesabla 4 nəfər varsa, 10 000 adam həmin imtahan haqqında fikir mübadiləsi aparır. Ona görə çalışırıq ki, istənilən xoşagəlməz hal universitetin imicinə zərər vurmasın "-deyən dosent imtahanların vaxtında başlanması üçün nəzarətçilərin işə məsuliyyətlə yanaşmasının vacibliyini söyləyib.

Virtual Test Mərkəzinin rəhbəri, dosent Şahin Bayramov da nəzarətçilərin üzərinə düşən vəzifələrdən danışaraq bildirib ki, nəzarətçi tələbədə mobil telefon görsə, onu dərhal imtahan zalından çıxarmalıdır: "İki tələbə eyni fəndən imtahan verərsə, yanaşı düşməməlidir. Onun sağında-solunda əyləşən tələbələr digər fənlərdən imtahan verməlidir. Nəzarətçi eyni zamanda bilməlidir ki, əgər iki sualın cavabı kompüterdə eyni, yaxud sualın cavabı səhv olarsa, o istiqamətdə tələbə ilə diskussiya aparmağa icazə yoxdur. Tələbə həmin sualı yadında saxlayıb imtahan qurtarandan sonra apellyasiya komissiyasına müraciət etməlidir. Tələbə öz səhifəsinə girəndən sonra yerini dəyişə bilməz. İmtahan qurtarandan sonra tələbə nəzarətçinin icazəsi olmadan dura bilməz. Telefonlar sönmüş vəziyyətdə olmalıdır. Tələbələrə qarşı kobud davranmaq olmaz. Tələbələrin böyük əksəriyyəti, xüsusilə də yuxarı kurslarda oxuyanlar imtahan qaydalarını gözəl bilirlər. Ümidvarıq ki, öz məsuliyyətlərini yaxşı anlayan nəzarətçilərin köməyi ilə imtahanların yüksək səviyyədə keçməsinə nail olacağıq".

Görüşdə iştirak edən imtahan-nəzarət qrupunun üzvlərinə tövsiyələrini verən prorektor çıxışı zamanı bəzi çatışmazlıqlara diqqət çəkdi:

"Bizim bu məsələdə çatışmayan bir cəhətimiz var. Bəzən tələbələrin aidiyyəti kafedralarla, testlərin tərtib olunması və cavabların hazırlanması zamanı yol verilən qüsurlarla bağlı haqlı iradları olur. Ona görə də testlər tərtib olunan zaman bu məqama diqqət yetirmək lazımdır. Bəzən nəzarətçilər imtahan zamanı vaxtında gələ bilmirlər. Unutmaq olmaz ki, imtahanların mütəşəkkil keçirilməsi nəzarətçilərdən çox asılıdır. Kafedranın müəllimləri də komissiyanın üzvü olmalarına baxmayaraq, bəzən vaxtında gəlib iştirak etmirlər. Çox istərdim ki, bu kimi məsələlərə aidiyyəti olan hər kəs riayət etsin"-deyən Sabir Əliyev nəzarətçilərin öz işlərinə məsuliyyətlə yanaşacağına və imtahanların normal keçəcəyinə əminliyini bildirdi.

**Qabil Abdullayev**
**Fotolar Cənnətalı Çingizindir**

## Soyqırımla bağlı ingilis dilində çap olunmuş kitab əcnəbi tələbələrə təqdim olunub

Azərbaycan Tibb Universitetinin xarici dillər kafedrasında "The events of 1918: died witnesses" kitabının təqdimatı keçirilib.



Əvvəlcə xarici dillər kafedrasının baş müəllimi Kəmalə İmanova çıxış edərək xarici tələbələrə Xocalı soyqırımında baş verənlər haqqında qısa məlumat verib.

Daha sonra Sosial Rifah və Tədqiqatlar İctimai Birliyinin sədri Əkrəm Bəydəmirli kitabı təqdim edərək, 5 illik araşdırmalar əsasında bu kitabın ərsəyə gəldiyini diqqətə çatdırıb. "1918-ci il hadisələri: dünyasını dəyişən şahidlər, unudulmayan tarix" kitabında müəllif 1918-ci ildə azərbaycanlılara qarşı törədilən soyqırımla bağlı yazılı mənbələrlə yanaşı, sözügedən dövr haqqında məlumatı olan, həmin faciəni araşdıran insanlarla, canlı şahidlərlə müsahibələrə də üstünlük verib. Məlum olduğu kimi, 1918-ci ildə erməni daşnaklarının Azərbaycan xalqına qarşı törətdikləri soyqırımını görən insanların böyük əksəriyyəti bu gün dünyasını dəyişib. Onların çox az bir hissəsi indi həyatdadır. Tarixi faktların aşkarlanması baxımından şahidlərin müəyyən olunması, xatirələrinin toplanması və nəşr olunması onların müsbət haldır.

Tədbirin davamında ATU-nun daxili xəstəliklər kafedrasıınn dosenti Nağdəli Zamanov qeyd edib ki, "Kitabla tanış oldum, çox bəyəndim. Şübhəsiz ki, bu kitablar Azərbaycan xalqının başına gətirilən belə zorakırlıqların bütün dünyada tanıdılmasına kömək edən yardımcı vəsaitlərdəndir".

QHT-sədri Milli qəhrəman Səfiyar Behbudovun bacısı Naibə Behbudova və Xocalı Soyqırımını Tanıtma İctimai Birliyinin sədri, jurnalist Şamil Sabiroğlu bu kitabın dəyəri haqqında öz təhlillərini verib.

Onlar ermənilər tərəfindən qəddarlıqla həyata keçirilən Xocalı soyqırımının canlı şahidləri olduqlarını, onların öz ailələrinin üzvlərinin, doğmalarının da soyqırımına məruz qalan bu şahidlər sırasında olduğunu hüznlü və kədərli notlarla dilə gətiriblər. Lakin onlar nikbinliklə qeyd ediblər ki, vətən torpağı uğrunda canından keçən Xocalı şəhidləri bugünkü müstəqilliyimizin bərqərar olmasının əsil qəhrəmanlarındandırlar:" Qəhrəmanlar isə ölmürlər. Dünya gec-tez bu bu qəhrəmanlığı tanıyacaq".

## Professor-müəllim heyətinin fəaliyyətinin qiymətləndirilməsi üçün komissiya yaradılıb

**Azərbaycan Tibb Universitetində (ATU) professor-müəllim heyətinin fəaliyyətinin bal-reytinq sistemi ilə qiymətləndirilməsi üçün komissiya yaradılıb.**



ATU-nun tədris və müalicə işləri üzrə prorektoru Sabir Əliyev tədbiri açaraq, komissiyaya işində uğurlar diləyib: "Bir neçə ay bundan əvvəl ATU-nun Böyük Elmi Şurasında professor-müəllim heyətinin fəaliyyətinin qiymətləndirilməsi üçün komissiya yaradıldı. Bu gün də biz bu komissiyanın məqsədinin nədən ibarət olduğunu və bu günə qədər artıq nələr etdiyi ilə bağlı məlumatlar verəcəyik".

Komitənin sədri, ATU-nun ağız və üz-çənə kafedrasının müdiri Çingiz Rəhimov tədbir iştirakçılarına komissiyanın vəzifələri, məqsədi, gözlənilən nəticələri haqqında geniş məlumat verib. O, komissiyanın 4 üzvü - III uşaq xəstəlikləri kafedrasının professoru Surxay Musayev, Elmi Tədqiqat Mərkəzinin direktoru, professor Qalib Qarayev, epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev, ümumi gigiyena və ekologiya kafedrasının müdiri, professor Mirzə Kazımov arasında artıq iş bölgüsünün aparıldığını deyib.

Ç.Rəhimov ilk olaraq bir neçə "pilot kafedralar"ın seçildiyini qeyd edib. Bunlardan I cərrahi xəstəliklər, insan anatomiyası, epidemiologiya, uşaq xəstəlikləri, əczaçılıq kimyası, ağız və üz-çənə cərrahiyyəsi kafedralarının, Mərkəzi Elmi Tədqiqat Laboratoriyasının adını çəkib: "Bu komissiya ATU-da aktiv və passiv kafedraların məlum olacağına da yol açacaq. Bu komissiyanın yaradılması lazım idi. Çünki universitetin reytinqinin əsasını kafedraların fəaliyyəti tutur" - deyə, sədr bildirib.

Tədbir müzakirələrlə davam edib.

**ATU-nun mətbuat xidməti**

# Türkiyənin Yeditepe Universitetinin dekanı ATU-nun qonağı olub

**Türkiyənin Yeditepe Universitetinin Tibb fakültəsinin dekanı, sinə cərrahı, professor, doktor Sina Ercan Azərbaycan Tibb Universitetinin (ATU) qonağı olub.**



Beynəlxalq işlər üzrə prorektor Nadir Zeynalov qonağa ATU haqqında geniş məlumat verib. Onun sözlərinə görə, bu ali təhsil ocağı 1919-cu ildə Bakı Dövlət Universitetinin tərkibində fakültə kimi yaradılıb. 1930-cu ildən isə müstəqil ali məktəb kimi fəaliyyət göstərməyə başlayb: "Universitetimiz bu il müstəqil universitet kimi 86 yaşını, fakültə kimi isə 97-ci yaşını qeyd edib".

N.Zeynalov həmçinin onu da bildirib ki, 6 fakültəsi olan bu ali təhsil ocağında 7000-dən çox tələbə və rezident, 1000-dən çox xarici ölkə vətəndaşı təhsil alır. Onlar arasından Türkiyədən olan tələbələr üstünlük təşkil edir.

N.Zeynalov qonaqlara ATU-nun imtahan sessiyası, tədris prosesi, rezidentura təhsili və xarici ölkələrlə olan qarşılıqlı əlaqələrindən də söz açıb: "Bizim universitet ilə 18 ölkə ilə arasında qarşılıqlı memorandium imzalanıb. Qarşılıqlı tələbə və həkim mübadiləsinə çox geniş yer veririk. Türkiyənin də bir çox universitetləri ilə dostluq əlaqələrimiz var".

Sina Ercan ilk dəfə Bakıda olduğunu və şəhərimizi çox bəyəndiyini qeyd edib: "Bu, bizim üçün çox böyük üstünlükdür. Bu il biz artıq 20 illiyimizi qeyd edəcəyik. Bizdə 50-yə yaxın tibb tədris proqramları var. Təhsil ocağımızda 13 fakültə fəaliyyət göstərir, 24 minə yaxın tələbə təhsil alır".

ATU-nun rəhbəri, professor Gəray Gəraybəylinin adından qonağa təşəkkür edən rektorun müşaviri Zülfüqar Musabəyov səslənən bütün fikirlərin qeydə alındığını bildirib.

Görüş zamanı tezliklə tərəflər arasında müqavilənin hazırlanıb, imzalanması haqqında danışıqlar aparılıb.

Qeyd edək ki, görüşdə ATU-nun ağız və üz çənə cərrahiyyəsi kafedrasının müdiri Çingiz Rəhimov, I müalicə-profilaktika fakültəsinin dekanı Qorxmaz Əhmədov da iştirak ediblər.

# ATU tələbələri mükafatlandırıldı

**Bu günlərdə Nəsimi Rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının gənclər arasında birgə keçirdiyi "Unudulmaz Lider" və "Mənim Prezidentim "layihələrinin yekununa həsr edilmiş mərasim baş tutub. Tədbirdə mükafatlandırılan tələbələr arasında Azərbaycan Tibb Universitetinin nümayəndələri də olub.**



"55 Adda - 55 Qalib" adlı tədbirdə Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov çıxış edərək son illərdə gənclərimizin ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakından söz açıb. Qeyd edib ki, hazırda Azərbaycan gəncləri çox saylı uğurlarla yeni-ilə və yeni hədəflərə doğru addımlayır.

Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri, Millət vəkili Məlahət İbrahimqızı da tədbirdə çıxış edərək ölkədə və Nəsimi rayonunda gənclərlə bağlı görülən işlərdən danışmış, gənclərimizi qazandıqları uğurlar münasibəti ilə təbrik edərək onlara yeni-yeni nailiyyətlər arzulayıb.

Mərasimdə ilin yekunlarına və müxtəlif layihələrdə fəal iştirakına görə 55 gənc mükafatlandırılıb. Qaliblər 55 nominasiya üzrə keçirilən müsabiqələrin yrkunların əsasən müəyyənləşdirilib.

Qaliblər arasında ATU-nun Müalicə-Profilaktika-2 fakültəsinin V kurs tələbəsi Sərxan Həsənli və həmin fakültənin VI kurs tələbəsi Malik Şükürlü də var. Bu gənclər müxtəlif layihə təşəbbüsləri ilə çıxış etdiklərinə görə qalib elan olunublar. Belə ki, Sərxan Həsənli ATU-nun Tələbə Həmkarlar İttifaqları Komitəsinin nəzdində yaradılan xarici dillər üzrə Conversation klubunun rəhbəridir. Malik Şükürlü isə ATU-da tələbələrin müxtəlif flashmoblarının təşkili ilə məşğul olur.

Tədbirdə iştirak edənlər ölkəmizfə gənclərə olan etimada, qayğıya və verilən dəyərə görə ölkə rəhbərliyinə və dövlət başçısına təşəkkürlərini çatdırıblar.

Mərasimin sonunda YAP Nəsimi rayon təşkilatının Gənclər Birliyi tərəfindən hazırlanmış "Gənclər öz Liderini təbrik edir" video filminin və "Ulu Öndər Nişanəsi" mahnısının təqdimatı da keçirilib.

Tədbirdə millət vəkilləri, gənclər təşkiltlarının rəhbərləri, tələbələr və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

**ATU-nun mətbuat xidməti**

# SÖZ – İNSAN QÜDRƏTİNİN SƏRKƏRDƏSİDİR

*Qədimdə deyirdilər ki, həkimin üç dərmanı var: otlar, minerallar və söz. Sözlə adama həm kömək etmək, həm də ölümcül yara vurmaq olar.*

**Söz - ən təsirli dərman, ən əhəmiyyətli müalicə vasitəsidir. Hələ qədim zamanlarda Hippokrat sözlə müalicəyə böyük əhəmiyyət verirdi. Sözü yerində işlətmək, düzgün tərzdə ifadə etmək bacarığı həkim üçün başlıca keyfiyyətdir. Həkimin ən böyük ləyaqəti yalnız deyilməsi lazım gələn fikri demək deyil, həm də deyilməsi lazım gəlməyən şeyi deməməkdir. Həqiqi sözlər gözəl deyildir, gözəl sözlər də həqiqət deyildir.**

*Söz dünyadı - harayı var, hayı var,*
*Fikirləş de, bişmişi var, çiyi var.*
*Söz bir oxdur, tarım duran yayı var,*
*Ölçüb-biçib sonra çəkək bu yayı,*
*Ağzımızdan söz çıxmasın havayı.*

Həkim fəlsəfəni, kimyanı, biologiyanı, tarixi, incəsənəti bilməklə yanaşı, həm də natiq olmalı, yüksək nitq mədəniyyətinə malik olmalıdır. Sözlərlə ehtiyatlı olmaq - gözəl danışmaqdan vacibdir. Həkim xəstə ilə söhbət edərkən şair kimi söz seçməli, təsirli vasitələrə əl atmalı, artist olub xəstənin səsinə, hərəkətinə, mimikasına fikir verməli, məharətlə danışmağı bacarmalıdır. Corc Eliot deyir: "Sözlərimizin qanadları var, lakin çox vaxt onlar biz istədiyimiz yerə uçmurlar". Söz 4 cürdür: Birincisi, nə bilərlər, nə deyərlər - dinə, insanlığa ziyan söz. İkincisi, həm bilərlər, həm də deyərlər - lazım olan söz. Üçüncüsü, deyərlər, lakin bilməzlər – haqq-təalanın kitablarında, hədislərdə, elmi, üləma kitablarında olan sözlər - belə sözlərin şərhi yalnız təqliddən ibarət olar. Dördüncüsü, bilərlər, lakin deməzlər - dostun, xəstənin və ya yaxınının sirrini və ya eyibini açan söz.

Bir dəfə Y.Qaqarin kosmosa öz tarixi uçuşundan danışdıqdan sonra çıxış edən İ.Kassirski ona çətin olacağını deyir və sonra təbabətin uğurlarından elə gözəl danışır ki, heyrətini gizlədə bilməyən Qaqarin mühazirədən sonra alimə yaxınlaşaraq deyir: "Ağır xəstələrə şəfa vermək, ölümün pəncəsindən qurtarmaq kosmosun fəthindən əhəmiyyətli və vacibdir".

Həkimliyə bundan yüksək necə qiymət vermək olar? Nitqin gücü az sözlə çox şey demək bacarığındadır. Həzrət Əli deyib: "Söz dərman kimidir: az xeyirli, çox ziyan". Sözlər də yarpaqlara bənzəyir, çoxlu yarpağı olan ağac az bəhrə verər.

Hikmətə bax, gör nə demiş atalar:

**"Qısa sözdə olar dərin mənalar".**

Çox danışmaq insanın gözdən düşməsi üçün ən qısa və ən etibarlı yoldur.

*Nə üçün göz iki, qulaq iki, ağız tək? -*
*Çox görüb, çox dinləyib, az danışmaq gərək.*

Həkimin sözü ney kimi sevinc artıran olmalıdır ki, ürəklər ona rəğbət göstərsin. Həqiqət o qədər qiymətlidir ki, onu gərək yalan eskadronu qorusun. Görkəmli rus cərrahı İ.Piroqovun üst çənəsində şiş əmələ gəlir. O, əvvəllər buna əhəmiyyət vermir. Sonralar məşhur cərrahlar onda bəd xassəli şiş olduğunu bildirirlər və cərrahi müdaxiləni məsləhət görürlər. Bu xəbərdən cərrahın əhvalı pozulur və bədbinləşir. Yaxınlarının məsləhəti ilə o, T.Bilrotun klinikasına gedir.

Bilrot onu müayinə edərək qəti bildirir ki, əhəmiyyətsiz yaradır, cərrahi əməliyyat lazım deyil. Bu söz minlərlə ümidsiz xəstələri həyata qaytarmış, gün yarım ərzində 600-ədək əməliyyat edən, 3 dəqiqəyə sidik daşı çıxaran Piroqov kimi mahir bir cərrahın əhvalını dəyişdirir, o,gümrahlaşır, öz işinə qayıdır. Lakin az sonra Piroqov ölür. Həkimlər Bilrotu səriştəsizlikdə, yanlış diaqnoz qoymaqda günahlandırırlar. Əlbəttə, həkimlər yanılırlar. Bilrot Piroqovun kimliyini, yaşını, zəifliyini, xəstəliyin gecikdirildiyini nəzərə almış, onun ömrünün son günlərini ümid və sevinclə yaşamasına müvəffəq olmaq üçün "müqəddəs" yalan demiş, belə humanist, düzgün qərar qəbul etmişdir. Necə deyərlər, qəlb ağrıdan həqiqətdənsə, könül açan yalan yaxşıdır. Doğrudan da, doğruya oxşayan yalan yalana oxşayan doğrudan yaxşıdır, çünki ona tez inanırlar.

Üç şey: atılmış ox, deyilmiş söz və keçmiş günlər heç vaxt qayıtmır. Söz ilə öldürmək də olar, xilas etmək də. Söz ilə kütləni arxanca aparmaq da olar, təklikdə qalmaq da. Misirdən Hindistana səfər zamanı general Jüno Napoleona deyir ki, arvadı Jozefina ona xəyanət edir. Bu söz sərkərdəni sarsıdır, o döyüşü yaxşı təşkil edə bilmir və məğlubiyyətə uğrayır.

Xəstəyə dava-dərmanla yanaşı, sözün şəfası da lazımdır. Həkimlikdə çaşqınlığa, tələsməyə yol verilməməlidir. Ehtiyatsızlıq- fəlakətin anasıdır,-demişlər.

Dil əql xəzinəsinin qılıncıdır. Xəqani yazır:

*Bəzən dil sıyrılmış qılınca bənzər,*
*Sərvaxt ol, başını bədəndən üzər.*

Qədimdə deyirdilər ki, həkimin üç dərmanı var: otlar, minerallar və söz. Sözlə adama həm kömək etmək, həm də ölümcül yara vurmaq olar. Mənə belə gəlir ki, kobud adamın həkim olmağa mənəvi haqqı yoxdur. Həkimin sözü, davranışı xəstə üçün ən təsirli müalicə vasitəsidir. Böyük alim və həkim B.Bexterev demişdir: "Həkimlə söhbətdən sonra xəstənin halı yüngülləşmirsə, o həkim deyil. "Həkimlə təmasda olan gülümsəməli, onunla ünsiyyət quranlar isə az da olsa xoşbəxt olmalıdır. Həkimin qəbuluna fəhlə də, alim də, çoban da gələ bilər. Hamı ilə "eyni dildə" danışmaq həkimi gözdən salar. Təsirsiz söz yağışsız ildırım kimidir. Nizami deyir:

*Elə söz vardır ki, yaramaz demək,*
*Başqa bir dil ilə söyləmək gərək.*
*Onu incə-incə söylərkən bir-bir,*
*Ondan hər eşidən alar bir təsir.*

Xətai isə belə deyir:

*Söz vardır, kəsdirər başı,*
*Söz vardır, kəsər savaşı.*

Həkimlikdə sözün müalicəvi təsirindən bacarıqla istifadə etmək ən mühüm məharət sayılır. Elə xəstələr var ki, onlara kömək etmək mümkün deyil, amma elə xəstə yoxdur ki, ona zərər yetirmək mümkün olmasın. **Sözün ən gözəli söyləyənin doğru söylədiyi, dinləyənin də faydalandığı sözdür.** Ən ağır xəstələri müayinə və müalicə edərkən həkim özünün sakitliyini, nikbinliyini saxlamağı bacarmalıdır. Bu böyük iradə, dözüm və mətanət tələb edir. Başqalarını xoşbəxt etmək üçün öz səhhətini, səadətini qurban verən adamlar - həkimlər xoşbəxtdirlər.

**Vahid HÜSEYNOV,**
*tibb üzrə fəlsəfə doktoru,*
*I daxili xəstəliklər və reanimatologiya kafedrasının assistenti*

Mütəxəssis sözü

# Emosiyalar və qidalanma

**Emosiyalar (latınca emoverl – oyatmaq, həyəcana gətirmək sözündən götürülmüşdür) insanın müəyyən psixi vəziyyəti olub ətrafdakılara, baş verən hadisələrə qarşı onun subyektiv münasibətini (xoş və kədərli hisslərini) ifadə edir. Aclıq və susuzluq insana əzab verən, toxluq hissi isə xoş (həzz) emosiyalara aiddir. Aclıq və toxluq hissinin baş-beyinlə əlaqəsini öyrənmək üçün təcrübə aparılan siçanların baş beyninin aclıq hissinə cavabdeh olan bir hissəsini kəsib götürmüşlər. Nəticədə iştaha olmamasından eksperimental heyvanlar arıqlayıb ölmüşdür. Siçanların digər bir qrupunun beynindən doyma mərkəzini kəsib götürmüşlər, bu dəfə heyvanlar yüksək iştahla arasıkəsilmədən yemişlər və piylənib ölmüşlər.**

Təkamül prosesinə insanın xarici mühitin müxtəlif vəziyyətlərinə uyğunlaşması üçün emosional hallar mühüm rol oynayır. Bəzi alimlər müxtəlif emosiyaların yaranmasını orqanizmin qidaya və suya tələbatının yaranması ilə izah edirlər. Məsələn, südəmər uşaq acdıqda ağlayır, doyduqdan sonra isə sakitləşir. Yaxud adam ac olduqda mənfi emosiyalar keçirərək əsəbi və narahat olduğu halda, qida qəbulundan sonra rahatlanır və xoş duyğular keçirir. Belə nəticə çıxır ki, insanın sinir sisteminin normal vəziyyəti onun qidalanmasına və qidanın həzminə, həmçinin düzgün təşkil olunmuş səmərəli qidalanma da sinir sisteminə müsbət təsir göstərir. Bəzi alimlər göstərirlər ki, qorxunun təsirindən qaraciyər və mədənin də funksional fəaliyyəti pozulur. Statistik məlumatlara əsasən mədə xorası və qastrit çox vaxt işi ilə əlaqədar vaxtında qidalanmayan və tez əsəbiləşən insanlarda yaranır.

Öyrənilmişdir ki, mənfi emosiyalar keçirən insanların qanında adrenalinin miqdarı artır ki, bu da orqanların işinin pozulmasına səbəb olur. Ona görə də insan bəd xəbər eşitdikdə, çox həyəcan keçirdikdə iştaha olmur. Əsasən adam hirsləndikdə, qəzəbləndikdə, qorxduqda adrenalin qana ifraz olunur ki, bu da insanlarda bir çox minillər ərzində formalaşmışdır. Təbiətin insana verdiyi qoruyucu reaksiyaların nəticəsidir ki, qanda adrenalin artan kimi onun laxtalanma qabiliyyəti də artır, qan damarları daralır və çox qan itirilməsinin qarşısı alınır.

Baxmayaraq ki, son yüzilliklərin elmi-texniki tərəqqisi insanların yaşayışını kökündən dəyişdirmişdir, genetik alim akademik N.P.Dubininin fikrinə görə, insanların genetik aparatı hətta son yüz min ildə belə dəyişməmişdir və mənfi emosiyalarla qana adrenalin ifrazı arasındakı qədim əlaqə olduğu kimi qalmışdır.

Təbabətin atası Hippokrat adamları sinir sisteminin vəziyyətinə və temperamentinə görə sanqviniklər, xoleriklər, fleqmatiklər və melanoxoliklərə bölürdü. Sonralar bu bölgünü bədən quruluşuna görə apararaq insanları asteniklər, normasteniklər və hipersteniklər olaraq üç qrupa böldülər. Öyrənilmişdir ki, insanların sinir sisteminin tipi ilə onun temperamenti, bədənin quruluşu və qidalanması arasında sıx əlaqə vardır. Xolerik tipli şəxslər daha çox yemələrinə baxmayaraq kökəlmir. Fleqmatik yaxud melanxoliklər asta-asta, tələsmədən, ləzzətlə, həm də çox yeməyi xoşlayırlar. Belə şəxslərin piylənməməsi üçün, qidalanmada onların bu xüsusiyyətləri nəzərə alınmalıdır.

Tədqiqatlar göstərmişdir ki, xoleriklər mənfi emosiyalara fleqmatik yaxud melanoxoliklərdən daha çox məruz qalırlar, halbuki mənfi emosiyalar onların həmısına mənfi təsir göstərir. Məsələ ondadır ki, xoleriklər bunu açıq şəkildə biruzə verir, fleqmatiklər isə ürəyində, gizlində fikir çəkirlər, bu xüsusən qadınlara məxsusdur. Onlar özlərini ələ alıb əsəblərini sakitləşdirə bilmədiklərinə görə çox vaxt şirin və yağlı qidalar (karbohidratlar və yağlarla zəngin) yeyib sakitləşirlər. Qeyd etmək lazımdır ki, izafi miqdarda qəbul olunmuş hər 100 q karbohidratdan təxminən 30 q yağ əmələ gəlir və bu da orqanizmin çəki artımına, piylənməsinə səbəb olur. İnsanların mənfi emosiyaları söndürmək üçün yeməyə əl atması orqanizmdə gedən fizioloji prosesləri dərindən bilməməsindən irəli gəlir. Çünki sakitləşmək üçün orqanizmə faydalı olan başqa yollar daha çoxdur. Belə yollara bədən tərbiyəsi və idmanla məşğul olmağı, autotreninqi (özünüməşq), zərərli adətləri (papiros, spirtli içkilər və s.) tərgitməyi və



s. misal göstərmək olar. İşin bir az çətinliyi ondadır ki, bunun üçün iradə, dözüm və öz üzərində işləmək lazımdır. Süfrədə sakitləşmək üçün isə insandan heç bir şey tələb olunmur. Belə asan yolun son nəticəsi isə bədənin ağırlaşması, sağlamlığın itirilməsidir.

Hələ qədim dövrün mütəfəkkirləri və həkimləri mənfi emosiyalar zamanı çox yeməyi zərərli hesab edirdilər. Hippokrat uzunmüddətli məşqdən sonra çox həyəcanlı olan idmançılara ən azı 2-3 saatdan sonra yeməyi məsləhət bilirdi, məşhur alim və həkim İbn Sina isə yazırdı ki, yemək və içmək ancaq orqanizm sakit olduqda fayda verir.

Müsbət və mənfi emosiyalar da qidalanma kimi lap körpə yaşlardan başlamış bütün ömür boyu bizimlədir. Yuxarıda deyilənlərdən göründüyü kimi qidalanma ilə emosiyalar birbaşa əlaqəlidir. Ona görə də hələ körpəlikdən uşaqlara nəinki düzgün qidalanmanın (səmərəli qidalanma) əsaslarını öyrətmək və onlara süfrədə oturmaq qaydalarını, keçmişdə xalqımızda olduğu kimi çörəyə və yemək işinə müqəddəs (halal) bir şey kımı baxmağı öyrətmək lazımdır. Uşaq balaca vaxtından süfrədə möhkəm bir qayda görməli, böyüklər yeməyə başlayana qədər gözləməli, qənaətcilliyi öyrənməli və beləliklə, qidalanma barədə əsas biliklərə yiyələnməlidirlər. Bu qaydalar möhkəmləndikdə, gələcəkdə adət halına düşür və uşaqlar böyüyüb özləri ailə qurduqda bu təzədən təkrar olunur. Yuxarıda şərh olunanları ümumiləşdirərək, belə qənaətə gəlmək olar ki, düzgün qidalanmada insanların şəxsi zövqü, xasiyyəti, emosional vəziyyəti, sağlamlığı nəzərə alınmalı və qidalanma mədəniyyəti qaydalarına əməl olunmalıdır.

**Şahalı Səmədov**
**Vaqif Əliyev**

# Yubiley təbriki

**Bu günlərdə kafedramızın assistenti Nuru Şahməmmədovun 50 yaşı tamam oldu.**

Məlumat üçün bildirək ki, Şahməmmədov Nuru Saydam oğlu 1966-cı ildə Cəbrayıl rayonunun Xələfli kəndində fəhlə ailəsində anadan olub.



1983-cü ildə orta məktəbi fərqlənmə ilə bitirib. İlk əmək fəaliyyətinə 1983-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti, Hadrud rayonunun üzümçülük sovxozunda fəhlə kimi başlayıb. 1984-1986-cı illərdə hərbi xidmətdə olub. 1988-ci ildə isə ATU-nun II müalicə-profilaktika fakültəsinə daxil olub. 1994-cü ildə həmin fakültəni fərqlənmə diplomu, adlı təqaüdlə bitirib. Böyük Elmi Şuranın qərarı ilə "İnsanın normal anatomiyası" kafedrasında baş laborant vəzifəsində işləyib.

1994-1997-ci illərdə "Şüa diaqnostikası və şüa terapiyası" kafedrasında 2 illik klinik ordinatura təhsili alıb. 1997-1999-cu illərdə Səhiyyə nazirliyində metodist vəzifəsində çalışıb.

1998-ci ildə kafedranın baş laborantı, 2000-ci ildə assisenti vəzifəsinə seçilib.

1998-2000-ci illərdə Sumqayıt şəhərindəki 004 saylı Hərbi hospitalda rentgen şöbənin rəisi vəzifəsində hərbi xidmət keçib.

2001-ci ildən YAP-ın üzvü, kafedra həmkarlar təşkilatının sədridir.

"Süd vəzisi xərçənginin erkən diaqnostikasında mamoqrafiya, termoqrfaiya, USM müayinə metodlarının kompleks rolu" adlı namizədlik dissertasiyasını müvəffəqyətlə müdafiə edərək tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsini alıb.

2012-ci ildə "Yemək borusu xərçənginin erkən aşkarlanmasında müasir şüa diaqnostik metodlarının rolu, müxtəlif müalicə metodlarının nəticələrinin optimallaşdırılması" adlı doktorluq dissertasiyasını uğurla sona çatdırıb, hal-hazırda rəsmi müdafiəyə hazırlaşır.

2013-cü ildə "İlin həkimi" mükafatına layiq görülüb. 100-dən artıq elmi məqaləsi yerli və xarici mətbuatda çap olunub, 1 monoqrafiyanın müəllifidir. Ali dərəcəli rentgenoloq-mamoloqdur. Dəfələrlə xarici ölkələrdə ixtisasartırma kurslarında olub, diplom və sertifikatla təltif edilib.

Qarabağ müharibəsi iştirakçısı və müharibə veteranıdır.

Eyni zamanda nümunəvi ailə başçısı olan Nuru həkim iki oğul atasıdır. Atasının yolunu davam etdirən böyük oğlu İlkin İ.Seçenov adına Tibb Akademiyasının məzunu, Kursk Tibb Universitetinin klinik ordinatorudur.

Sevimli iş yoldaşımızı yubileyi münasibətilə təbrik edir, ona möhkəm cansağlığı, gələcək fəaliyyətində uğurlar arzulayırıq.

*Şüa diaqnostikasının və şüa terapiyası kafedrasının əməkdaşları*

# UĞURLU BEYNƏLXALQ KONFRANS

**Dost Pakistan İslam Respublikasının Karaçi şəhərində yerləşən İCCBS – İnternational Center for Chemcal and Biological Sciences – dünya miqyasında kimya və biologiya üzrə aparıcı elmi-tədqiqat mərkəzi olub, Karaçi Universiteti nəzdində fəaliyyət göstərir.**



1966–cı ildə Dr. Salimuzzaman Siddiqi tərəfindən yaradılan bu mərkəz ən müasir avadanlıqlarla təchiz olunmuş bir neçə tədqiqat institutlarından ibarətdir. Bu elmi mərkəz 2002-ci ildən başlayaraq hər il Beynəlxalq səviyyəli konfranslar və simpoziumlar təşkil edərək bütün ölkələrdən tanınmış tədqiqatçı alimləri bir araya yığır. Bu il keçirilən İCCBS - nin 50 illik qızıl yubileyinə həsr olunmuş 14- cü Kimya Elmləri Avrasiya Konfransında ATU-nun Bioloji kimya kafedrasından rəsmi dəvətlə 2 nəfər - dosent Əzizova Gülnarə İbrahim qızı və kiçik elmi işçi Osmanov Hafiz Maarif oğlu, eləcə də "Nərgiz" klinikasının direktoru Məlahət xanım Qəhrəmanova və "AbFarma" MMC-nin direktoru Arzu Abbasov işgüzar məqsəd ilə iştirak etmişlər. Konfransa təqdim edilən **"The study of some specific endogenous peptides as markers for development of inflammatory process in chronic hepatitis C"** adlı tezis cap olunan əsərlər siyahısına salınmış və dosent Əzizova Gülnarə bu mövzuda uğurla məruzə etmişdir. Gülnarə xanımın dekabrın 17-də **"Life chemistry-həyat kimyası"** bölməsindəki ingilis dilində olan çıxışı maraqla qarşılanmış və məruzə ətrafında suallar cavablandırılmışdır. Aparılan eksperimentlər və alınan nəticələri əks etdirən prezentasiya nümayiş etdirilmiş və kafedranın elmi laboratoriyası haqda ətraflı məlumatlar verilmişdir. Konfransın sonunda hər iki əməkdaşımız sertifikatla təltif edilmişdir.

Qeyd etmək istərdik ki, 50 ölkədən olan 150 xarici alim daxil olmaqla, ümumilikdə 700 tədqiqatçının iştirak etdiyi bu mötəbər beynəlxalq toplantıda müasir kimya və onun müxtəlif sahələri üzrə elmi işlər müzakirəyə çıxarılmışdır. Konfrans Beynəlxalq İqtisadi Əməkdaşlıq Təşkilatı ECO-nun, həmçinin, Pakistanın Təhsil Nazirliyi və Elmlər Akademiyası, əczaçılıq və biodiaqnostika mərkəzləri tərəfindən maddi və mənəvi olaraq dəstəklənmişdir. Dörd gün keçirilən bu konfransda müxtəlif plenar, eləcə də bölmələr üzrə 100-ə yaxın məruzə dinlənilmiş və muasir məlumatlar müzakirəyə çıxarılmışdır.

Universitetimizin rəhbərliyi tərəfindən dost Pakistan xalqının bu elmi uğuruna-mərkəzin 50 illik fəaliyyəti münasibəti ilə konfrans rəhbərliyinə ünvanlanmış təbrik məktubu böyük sayqı və ehtiramla qarşılanmış, gələcəkdə bu elmi mərkəzlə qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

# Dahi şairin xatirəsi yad edildi

**Dekabrın 19-da Tibbi profilaktika fakültəsi nəzdində Azərbaycan dili kafedrasında XX əsrin klassiki, Azərbaycanın ilk Xalq şairi, akademik Səməd Vurğunun 110 illik yubileyi ilə bağlı tədbir keçirildi.**

Tədbirdə tələbələr, hazırlıq şöbəsinin dinləyiciləri, müəllimlər, fakültənin dekanı, dosent A.Məmmədov, "Təbib" qəzetinin baş redaktoru, şair-publisist, əməkdar jurnalist Eldar İsmayıl iştirak edirdilər. İştirakçıları salamlayan bu tədbirin təşkilatçılarından biri dosent D.Nağıyeva vəfatından 60 il keçsə də, bu xalqın yaddaşından çıxmayan böyük şairin həmişəyaşarlığından danışdı. O bu tədbirin təşkilində İran İslam Respublikasından və Türkiyədən olan hazırlıq şöbəsi dinləyicilərinin də fəallıq göstərdiklərini qeyd etdi. Sonra söz Azərbaycan dili kafedrasının müdiri dosent A.Miriyevə verildi. Akif müəllim



S.Vuğunun təkcə aşıb-daşan şairlik istedadına sahib olmadığını, onun bir şəxsiyyət kimi kamilliyini, lap cavan yaşlarından SSRİ kimi nəhəng bir dövlətdə böyük nüfuza malik olmasını, xalq arasında geniş şöhrət qazana bilməsini şairin insanlıq fenomeni ilə əlaqələndirdi. Natiq çox təəssüf hissi ilə qeyd etdi ki, belə bir istedadın və şöhrətin sahibi ömrü boyu təqiblərə, haqsız tənqidlərə məruz qalmış, əzabkeş xalqımızın dərdləri ilə baş-başa yaşamışdır. Nəticədə çox cavan yaşında sağalmaz xəstəliyə tutulmuş, 50 yaşında həyata göz yummuşdur. Akif müəllim onu da bildirdi ki, ədəbiyyatımızı öz misilsiz əsərləri ilə zənginləşdirib şöhrətləndirən Səməd Vurğun ona həm də iki istedadlı oğul (xalq yazıçısı Yusif və Xalq şairi Vaqif Səmədoğluları) bəxş etmişdir.

Sonra söz Azərbaycan dili kafedrasının dosentləri İ.Ağayeva və Z.Avılovaya verildi. Onlar şairlə bağlı xatirələrini danışdılar, onun yaradıcılığından nümunələri dinləyicilərə çatdırdılar. Dosent Zərifə xanımın "Vaqif" pyesindən iri bir parçanı diksiya ilə söyləməsi dinləyicilərə xoş təsir bağışladı. Bundan sonra tələbələr və hazırlıq şöbəsinin dinləyiciləri çıxış etdilər: 1126a qrupunun tələbəsi İlkin Əhmədov çaldığı sazın müşayiəti ilə "Dağlar" şeirini özünəməxsus intonasiya ilə ifa etdi; tələbələr Aysu Bayramova



(qr.790) "Bir səs", Fəridə Şahbazzadə (qr. $366^a$) "Yandırılan kitablar" şeirlərini bədii intonasiya ilə söylədilər. Tədbirin ən maraqlı ifalarından biri hazırlıq şöbəsinin dinləyiciləri Əhməd Özsevən, Rujdar Dal (qr.9) və Hüseyn Mədədinin (qr.4) birlikdə "Ceyran" şeirini xüsusi kompozisiya formasında təqdim etmələri oldu. İdris Özgün və Şila Yusifoğlunun (qr.7) ifa etdikləri "Azərbaycan" şeirindən bir parça da iştirakçıların alqışları ilə qarşılandı. Tədbirdə çıxış edən şair E.İsmayıl tədbirdən məmnun qaldığını, son zamanlar haqqında az-az danışılan böyük şair S.Vurğunu yada saldıqları üçün təşkilatçılara təşəkkür etdi.

Tibbi profilaktika fakültəsinin dekanı, dosent A.Məmmədov ATU-nun rəhbərliyi adından kafedra əməkdaşlarına və tələbələrə minnətdarlığını bildirdi.

Sonda Akif müəllim tədbirin qonşu epidemiologiya kafedrasının mühazirə zalında keçirildiyini bildirərək, göstərdikləri texniki köməyə görə kafedra işçilərinə, xüsusən professor İ.Ağayevə təşəkkür etdi. Tədbir "Qarabağ şikəstəsi"nin sədaları altında ulu öndərimiz Heydər Əliyevin kövrək səsində "Azərbaycan" şeirinin bir bəndi ilə yekunlaşdı.

**İ.Hacıyeva,**
*Azərbaycan dili kafedrasının kabinet müdiri*

## Tibb aləmində

## Amerika alimləri yuxunun pozulması səbəblərini araşdırıblar

**Mütəxəssislər çoxsaylı könüllünün iştirakı ilə tədqiqat aparaq, yemək rasionu ilə yuxunun keyfiyyəti arasındakı bağlılığı təhlil ediblər.**



AZƏRTAC "wek.ru" saytına istinadla xəbər verir ki, pensilvaniyalı (ABŞ) mütəxəssislər bir çox insanların yuxu rejiminin pozulmasının mümkün səbəblərindən birini aydınlaşdıra biliblər. Məlum olub ki, yuxu problemi düzgün olmayan eyni cür qidalanma ilə əlaqədar ola bilər. Eyni kalorili yeməkləri yeyən insanlar orta hesabla altı saat yatırlar. Çeşidli və tarazlaşdırılmış yeməklərlə qidalanan insanlar isə daha rahat yatırlar. Onların yuxu müddəti gündə azı 7-8 saat olur.

Müəyyən edilib ki, yetərincə su içməyən insanlar da az yatırlar. Doyunca yatması üçün doqquz və daha çox saat tələb olunan insanlar şokolad, çay, karbohidrat və doymuş yağla-

## Bionik göz korlara ümid verir

**Böyük Britaniyada bionik deyilən göz uğurla sınaqdan keçirilib.**



AZƏRTAC "bbc.com" saytına istinadla xəbər verir ki, elektron qurğu ilə insanın biosistemini birləşdirən bu texnologiya görmə sistemində genetik pozğunluğun nadir formasından əziyyət çəkən insanların görmə qabiliyyətinin qismən bərpa olunmasına imkan verir.

Mütəxəssislərin sözlərinə görə, bu, yalnız birinci addımdır, texnologiya təkmilləşdikcə, bionik gözləri olan adamların görmə keyfiyyəti də yaxşılaşacaq.

Gözlərinə yeni qurğu köçürülən pasiyentlər indinin özündə deyirlər ki, bionik göz indiyədək zülmət içində olan həyatlarına marağı geri qaytarıb.

Yeni il yeni başlanğıc deməkdir. Ətrafımızda olan hər şey təzələnir. Yeni ilin doğuşu ilə bizim həyatımıza təsir edən enerji dəyişir.



Üzümüzə gələn il Xoruz ili – 1921, 1933, 1945, 1957, 1969, 1981, 1993, 2005, 2017–ci illərə təsadüf edir.

Bu ildə doğulan insanlar əməyi sevir, öz işlərini həmişə asanlıqla yerinə yetirən olurlar. İstənilən işi öhdələrinə götürüb başa çatdırırlar, hətta bu işə gücləri çatmasa belə yenə də bezmirlər, sona qədər gedirlər. İnsanlarla dərhal ünsiyyət qura bilmirlər. Həqiqəti sevirlər, həqiqət üzrə mübarizə aparırlar və çox vaxt haqlı çıxırlar. Təbiətcə utancaq olan bu insanlar çox vaxt təkliyə üstünlük verirlər. Onlar həmişə maraqlı insan olurlar, daima yeniliklər düşünüb yaradırlar. Adətən dərin düşüncəli olurlar. Bəzən eqoist olurlar, amma həddindən artıq düzgün seçimlər edirlər.

## Etibarsız sayılır

Miriyev Akif Fərman oğlunun adına Nərimanov rayon daxili işlər şöbəsi tərəfindən 2001-ci ildə verilmiş AZE 0231619 №-li şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin IV kurs, $887^b$ qrup tələbəsi Al-Hurmuzi Mohammed Jameelin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin IV kurs, $881^b$ qrup tələbəsi İsmayılova Nərminə Aslan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $46^c$ qrup tələbəsi Mehmet Yusuf Yasemin Akif oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $180^a$ qrup tələbəsi A.R. Tamimi Nizar Najeebin adına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin I kurs, $780^b$ qrup tələbəsi Mahsum Aşlığ Ahmet oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, $364^b$ qrup tələbəsi Hüseynova Sveta Kəmaləddin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Xudaverdiyev Kamran Telman oğluna 1995-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən stomatoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Babayeva Vəfa Nazim qızına 2000-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən həkim laborant ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

"Təbib" qəzetinin kollektivi baş redaktor Eldar İsmayıla əzizi
**Məhəmməd Balı oğlunun**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Patoloji anatomiya, insan anatomiyası, sitologiya, histologiya və embriologiya kafedralarının əməkdaşları və "Təbib" qəzetinin kollektivi patoloji anatomiya kafedrasının tədris hissə müdiri Müşfiq Orucova atası
**Teyyub həkimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Normal fiziologiya kafedrası əməkdaşları kafedranın dosenti Dilarə Əliyevaya atası
**Akademik Maqsud Əliyevin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Uşaq cərrahlığı kafedrası, Tədris Cərrahiyyə Klinikası və Kliniki Tibbi Mərkəzin uşaq cərrahiyyəsi şöbələrinin əməkdaşları dosent Ramiz Poluxova atası
**Şamil Poluxovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sitologiya, histologiya və embriologiya kafedrasının əməkdaşları kafedranın assistenti Südabə Tahirovaya əzizi
**Məleykə xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

II uşaq xəstəlikləri kafedrasının əməkdaşları Aynur və Ramiz Poluxovlara əzizləri
**Şamil Poluxovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası kafedrasının əməkdaşları kafedranın dosenti Arifə Məmmədovaya anası
**Mələk xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - $98^c$**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 3000
Sifariş: 366